*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*"06" dekabr 2011-ci il tarixli*
*Q-01 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması

# QAYDALARI

Bakı 2011

Bu Qaydalar «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrası məqsədilə hazırlanmışdır və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta şəhadətnaməsinin (bundan sonra – “şəhadətnamə”) forması, onun çap olunması və doldurulması ilə bağlı məsələləri tənzimləyir.

## 1. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası şəhadətnaməsinin forması

**1.1.** Şəhadətnamənin forması üz və arxa hissədən ibarət olmaqla, bu Qaydalara Əlavədə müəyyən edilir.

**1.2.** Şəhadətnamə formasının üz hissəsində sığortaçı, sığortalı və istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığortalanması nəzərdə tutulan daşınmaz əmlak barədə məlumatların, həmçinin daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası müqaviləsinin əsas şərtlərinin qeyd olunmasını nəzərdə tutan cədvəl əks etdirilir.

**1.3.** Şəhadətnamə formasının arxa hissəsində “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununun 5.3-cü, 21.1-ci, 25-ci, 32-ci, 44.1-ci, 45.2-ci və 46-cı maddələrindən çıxarışlar qeyd edilir.

## 2. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası şəhadətnaməsinin formasının çap olunması qaydası

**2.1.** Şəhadətnamə blanklarının (bundan sonra – “blanklar”) əsli və surəti bu Qaydaların 2.2 – 2.6-cı bəndlərinin tələbləri nəzərə alınmaqla, bu Qaydalara Əlavədə müəyyən edilmiş formada iştirakçı sığortaçıların vəsaiti hesabına İcbari Sığorta Bürosunun sifarişi ilə ciddi hesabat blanklarının hazırlanması fəaliyyətinə xüsusi razılığı (lisenziyası) olan mətbəədə çap etdirilir.

**2.2.** Blankların əsli A4 formatında xüsusi müdafiə nişanları olan ağ kağız vərəqdə üz və arxa hissədən ibarət olmaqla çap edilir surəti isə adi A4 kağız formatında olan ağ vərəqdə, yalnız üz hissədən ibarət olmaqla çap edilir.

**2.3.** Blankların əsli və surətinin seriyasına aid hissədə CA-dan başlayaraq iki hərfli seriyalar, nömrəsinə aid hissədə 000001 nömrəsindən başlayaraq altı rəqəmli nömrələr ardıcıllıqla qeyd edilir. Seriyanın CB-yə və sonrakı seriyalara dəyişməsi altı rəqəmli şəhadətnamə nömrələrinin başa çatmasından sonra həyata keçirilir.

**2.4.** Blankların əslinin çap edilməsi zamanı aşağıdakı əlavə tələblər də nəzərə alınmalıdır:

**2.4.1.** blankın üz hissəsinin fonunda iri hərflərlə açıq boz rəngdə icbari sığorta şəhadətnaməsi sözlərinin baş hərfləri – "İSŞ" həkk edilir;

**2.4.2.** blankın üz və arxa hissəsinin kənarları günbəzşəkilli, bənövşəyi rəngli naxışlarla haşiyələnir;

**2.4.3.** blankın üz hissəsinin aşağı sağ küncündə bənövşəyi rəngli bina təsviri həkk olunur.

**2.5.** Şəhadətnamə formasının üz hissəsinin sonunda müəyyən edilmiş "Sığortalının (hüquqi şəxs olduqda, səlahiyyətli nümayəndəsinin) imzası" sözləri şəhadətnamə blanklarının yalnız surətində qeyd edilir.

**2.6.** Sığorta məbləğləri (4-cü bənd) və sığortanın qüvvədə olduğu ərazi (6-cı bənd) qanunla daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə bütün sığorta müqavilələri üçün eyni müəyyən edildiyindən, bu şərtlər blankda çap edildikdə göstərilir.

**2.7.** Büro çap olunmuş şəhadətnamə blanklarının seriya və nömrələri barədə çap olunma tarixindən 3 iş günü müddətində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinə məlumat verməlidir.

## 3. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığorta şəhadətnaməsinin formasının doldurulması qaydası

**3.1.** Şəhadətnamə forması aşağıdakı məlumatlar aidiyyəti bəndlərdə göstərilməklə texniki vasitədə çap olunmaqla və ya əl ilə doldurulur:

**3.1.1.** 1.1-ci bənddə sığortaçının adı, 1.2-ci bənddə sığortaçının olduğu yerin ünvanı, 1.3-cü bənddə isə ən azı bir telefon nömrəsi qeyd edilir.

**3.1.2.** Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyəti sığorta etdirən mülkiyyətçi və ya faktiki sahibliyi həyata keçirən (yəni onu icarəyə götürmüş və ya digər qanuni əsaslarla istismar edən)

**3.1.2.1.** fiziki şəxs olduqda – 2.1-ci bənddə adı, atasının adı və soyadı, 2.2-ci bənddə yaşayış yerinin ünvanı, 2.3-cü bənddə ən azı bir telefon nömrəsi, 2.4-cü bənddə VÖEN-i qeyd edilir;

**3.1.2.2.**hüquqi şəxs olduqda – 2.1-ci bənddə adı, 2.2-ci bənddə olduğu yerin ünvanı, 2.3-cü bənddə ən azı bir telefon nömrəsi, 2.4-cü bənddə VÖEN-i qeyd edilir.

**3.1.3.** 3.1-ci bənddə hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın seriya və nömrəsi; daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarış olmadıqda, 3.2-ci bənddə

“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində nəzərdə tutulmuş daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı üçün tələb olunan əsaslara dair sənədin rekvizitləri; 3.3-cü bənddə daşınmaz əmlakın təyinatı (istifadə məqsədi); 3.4-cü bənddə daşınmaz əmlakın ünvanı qeyd edilir.

**3.1.4.** 5-ci bənddə “Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta haqlarının məbləği” ilə risk qrupları üzrə müəyyən edilən sığorta haqqı qeyd edilir.*

**3.1.5.** 7-ci bənddə sığorta müqaviləsinin qüvvəyə mindiyi tarix, 8-ci bənddə sığorta müqaviləsinin qüvvədən düşdüyü tarix qeyd edilir.

**3.2.** Texniki vasitədə çap edilməklə və ya əl ilə doldurulmuş şəhadətnamə blankı sığortaçının səlahiyyətli əməkdaşı və ya sığorta vasitəçisinin imzası və sığortaçının möhürü ilə təsdiq edilməklə əsli sığortalıya, yaxud onun səlahiyyətli nümayəndəsinə təqdim olunur.

**3.3.** Sığortalı və ya onun səlahiyyətli nümayəndəsi şəhadətnamə blankının surətində bu məqsədlə müəyyən edilmiş müvafiq hissəni imzalayır.

* Azərbaycan Respublikası Prezidentinin «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında” 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.7-ci yarımbəndinə uyğun olaraq, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta haqlarının məbləğini müəyyən etmək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılmışdır.

*Azərbaycan Respublikası Maliyyə Nazirliyinin*
*"Daşınmaz əmlakın istismarı ilə bağlı mülki*
*məsuliyyətin icbari sığortası üzrə sığorta*
*şəhadətnaməsinin forması, onun çap olunması*
*və doldurulması Qaydaları"na Əlavə*

# DAŞINMAZ ƏMLAKIN İSTİSMARI İLƏ BAĞLI MÜLKİ MƏSULİYYƏTİN İCBARİ SIĞORTA ŞƏHADƏTNAMƏSİ

| | | | | | |
|---|---|---|---|---|---|
| **Şəhadətnamə №:** | | **Blank:** | Seriya: CA | № | 000001 |

## 1. SIĞORTAÇI:

| | |
|---|---|
| **1.1.** Adı: | |
| **1.2.** Ünvanı: | |
| **1.3.** Telefon nömrəsi: | |

## 2. SIĞORTALI:

| | |
|---|---|
| **2.1.** Adı: | |
| **2.2.** Ünvanı: | |
| **2.3.** Telefon nömrəsi: | |
| **2.4.** VÖEN: | |

| **3. DAŞINMAZ ƏMLAKA DAİR MƏLUMAT** | | | |
|---|---|---|---|
| **3.1.** Dövlət reyestrindən çıxarışın seriya və nömrəsi: | | **3.2.** Sığortalıya istifadə hüququ verən digər sənəd: | |
| **3.3.** Təyinatı (istifadə məqsədi): | | **3.4.** Yerləşdiyi ünvan: | |

| **4. SIĞORTA MƏBLƏĞİ** *(manat)* | | | | |
|---|---|---|---|---|
| **4.1.** Əmlaka vurulan zərərə görə | 50000 (əlli min) | **4.2.** Sağlamlığa vurulan zərərə görə | **4.2.1.** *Bir şəxs üzrə* | 5000 (beş min) |
| | | | **4.2.2.** *Ümumi* | 50000 (əlli min) |

| | | | |
|---|---|---|---|
| **5. SIĞORTA HAQQI** *(manat)* | | **6. SIĞORTANIN QÜVVƏDƏ OLDUĞU ƏRAZİ** | Azərbaycan Respublikası |
| **7. SIĞORTA MÜQAVİLƏSİ QÜVVƏYƏ MİNİR:** | | **8. SIĞORTA MÜQAVİLƏSİ QÜVVƏDƏN DÜŞÜR:** | |

**Sığortaçının nümayəndəsi** ____________ ***Möhür Yeri***
*imzası*

______________________________________________ _______________
*adı, atasının adı, soyadı,* *telefon nömrəsi*

**Sığortalının *(hüquqi şəxs olduqda, səlahiyyətli nümayəndəsinin) imzası*** __________________

## "İCBARİ SIĞORTALAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDAN ÇIXARIŞ

**Maddə 5.3**. Sığortalılar sığorta müqaviləsi bağlamaq üçün *avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin* icbari sığorta növünün aparılmasına icazəsi olan hər hansı sığortaçını seçməkdə sərbəstdirlər.

**Maddə 44.1.** Daşınmaz əmlakın istismar edilməsi, o cümlədən onun ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin aparılması nəticəsində *baş verən sığorta riskləri* – **elektrik və ya qaz cihazlarından istifadə nəticəsində yaranan yanğın, yaxud belə yanğının qarşısının alınması üçün görülən tədbirlərin nəticələri; qaz partlayışı; elektrik naqillərində baş verən qısa qapanma; su, istilik və kanalizasiya xətlərində baş verən qəza nəticəsində subasma; hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri** *ilə əlaqədar* zərərçəkən üçüncü şəxslərin sağlamlığına və (və ya) əmlakına dəyən zərərin əvəzinin ödənilməsi üzrə **mülki məsuliyyətin yaranması faktı** sığorta hadisəsi hesab olunur.

**Maddə 45.2.** *Bu şəhadətnamənin* kimin adına verilməsindən asılı olmayaraq, *burada qeyd olunan* əmlakı qanuni əsaslarla istifadə edən və ya onun ərazisində belə əsaslarla fəaliyyət göstərən istənilən şəxs üçüncü şəxslər qarşısında mülki məsuliyyətinə görə əmlak mənafeyi sığortalanmış sığorta olunan hesab edilir.

**Maddə 46.** *Sığortalı və (və ya) sığorta olunanın ailə üzvləri istisna olmaqla, bu* icbari sığorta müqaviləsinin tərəfi olmayan, sığortalının və ya sığorta olunanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində zərər çəkən şəxslər, o cümlədən *bu müqavilədə qeyd olunan* əmlakın olduğu yerə, o cümlədən inşaat, təmir, yenidənqurma və ya digər işlərin aparıldığı əraziyə giriş müvafiq qaydada qadağan olunmadığı halda, həmin əraziyə daxil olan belə şəxslər, habelə onların vərəsələri üçüncü şəxs sayılırlar.

**Maddə 21.1**. *hadisənin baş verməsi* … hərbi əməliyyatlar, terrorçuluq, kütləvi iğtişaşlar*la…əlaqədar olduqda, bundan başqa* sığorta tələbi üçüncü şəxsin pul, qiymətli kağızlar, qiymətli metallar və qiymətli daşlar, sənət əsərləri, o cümlədən rəsm əsərləri, qravüralar, heykəllər, həmçinin modellər, plan və eskizlər, ixtira patentləri, sənədlər, kitablar və yazılar şəklində olan əmlakına dəymiş zərərlə, *habelə* mənəvi zərərlə və ya gəlir itkisi ilə, *həmçinin* …sığortalının və ya sığorta olunanın cərimə, dəbbə pulu, peniya ödəməsi üzrə əmlak mənafeləri ilə bağlı olduqda, *sığorta ödənişi verilmir.*

**Maddə 25.** *Hadisə,* …sığortalının və ya sığorta olunanın həmin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi qanunazidd hərəkətlərinin nəticəsi olduqda, *əmlakın* sərxoş vəziyyətdə istismar edilməsi *nəticəsində və ya onu istismar etməyə hüququ olmayan şəxs tərəfindən, yaxud* texniki təyinatına uyğun olmayan məqsədlərlə istifadə edilməsi *zamanı baş verdikdə, sığortaçı üçüncü şəxsə verdiyi sığorta ödənişini subroqasiya hüququ əsasında sığorta olunandan geri almaq hüququna malikdir*.

**Maddə 32.** Sığortaçı *bu şəhadətnamə* …üzrə sağlamlığa və (və ya) əmlaka dəyən zərərlə bağlı öhdəliklərini ödəmə qabiliyyətinin olmamasına görə yerinə yetirə bilmədikdə, *üçüncü şəxsə dəymiş zərərin əvəzi İcbari Sığorta Bürosu tərəfindən kompensasiya ödənişi verilməklə həyata keçirilir.*

***QEYD:***

***Sığortalı və ya sığorta olunan bu şəhadətnamə əsasında bağlanmış icbari sığorta müqaviləsi üzrə hüquqlarının pozulduğunu hesab etdiyi hallarda 404-46-99 nömrəli telefonla və ya www.sigorta.maliyye.gov.az internet səhifəsində mövcud olan "Sorğu və müraciətlər" bölməsi, yaxud info@maliyye.gov.az elektron poçt ünvanı vasitəsilə Bakı şəhəri, C. Məmmədquluzadə küçəsi-71 ünvanında yerləşən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinə şikayət edə bilər.***